**Suraxanı Rayon Statistika Şöbəsinin 20 oktyabr Ümumdünya Statistika günü və Azərbaycan Respublikasında rəsmi statistikanın yaradılmasının 95-ci il dönümünə həsr olunmuş tədbiri keçirilmişdir.**



19 oktyabr 2015-ci il tarixində Suraxanı Rayon Statistika şöbəsinin 20 oktyabr "Ümumdünya Statistika günü" və Azərbaycan Respublikasında rəsmi Statistikanın yaradılmasının 95-ci il dönümünə həsr olunan tədbiri keçirildi. Tədbirdə Suraxanı rayon İcra Hakimiyyətinin Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırma şöbəsinin müdiri cənab Altun Quliyev, müəssisə və təşkilatların idarə rəhbərləri, işçiləri və Suraxanı Rayon Statistika şöbəsinin bütün əməkdaşları iştirak edirdilər.



Tədbiri giriş nitqi ilə Suraxanı Statistika Şöbəsinin rəisi Ruslan Əliyev açdı, "Müasir dövrdə statistikanın əhəmiyyəti, tarixi, prinsipləri, bazar iqtisadiyyatına kecid şəraitində statistikanın vəzifələri və statistikanın inkişaf mərhələləri "mövzusunda geniş məruzə ilə çıxış etdi. "Statistikanın əhəmiyyəti və 20 oktyabr – "Ümumdünya Statistika günüdür" mövzusu barəsində ətraflı məlumat verdi və iclas iştirakçılarına Azərbaycan Respublikasında Statistikanın rolu və əhəmiyyətindən danışdı. Çıxışının sonunda Dövlət Statistika Komitəsinin sədri Cənab Tahir Budaqovu və onun simasında bütün əməkdaşlarını rayon Statistika şöbəsinin kollektivi adından təbrik etdi.



Suraxanı rayon İcra Hakimiyyətinin Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırma şöbəsinin müdiri cənab Altun Quliyev öz çıxışında Statistika şöbəsinin əməkdaşlarının işindən razı olduqlarını vurğuladı, öz məruzəsində Suraxanı Rayon Statistika Şöbəsinin fəaliyyətindən danışdı və bu çətin işdə daha da məsuliyyətli olmağı tövsiyə etdi, bayram münasibətilə öz səmimi arzularını bildirdi və 20 oktyabr Ümumdünya Statistika günü münasibətilə Suraxanı Rayon İcra Hakimiyyətinin Başçısı cənab İlqar Abbasovun təbrik məktubunu oxuyaraq Suraxanı Rayon Statistika şöbəsinin əməkdaşlarını təbrik etdi və fəaliyyətlərində müvəffəqiyyətlər arzuladı.



Tədbirdə iştirak edən qonaqlardan Suraxanı Maşınqayırma TASC – nin sədr müavini cənab Qafqaz Vəliyev, Suraxanı

Rayon Layihə Smeta Bürosunun baş mühasibi cənab Mürvət Qədimoğlu çıxışlarında müəssisə və idarələrdə Statistik hesabatlar vasitəsilə sosial-iqtisadi göstəricilərin əldə olunmasının əhəmiyyətindən danışdılar. Rayon Statistika şöbəsinin əməkdaşları tərəfindən mütəmadi olaraq statistik hesabatlarla əlaqədar müəyyən köməklik göstərilməsinə və şöbə işçilərinin işlərində daha dəqiq olmalarına görə öz minnətdarlıqlarını bildirdilər və bayram münasibətilə səmimi təbriklərini çatdırdılar.



Tədbirdə “İcmal” qəzetinin müxbiri İlyas Naxçıvani iştirak edirdi. O tədbirdəki çıxışlara əsaslanaraq məqalə tərtib etdi və adı çəkilən qəzetdə dərc etdirəcəyini bildirdi.

Sonda Xatirə şəkli çəkdirildi.